# İBRAHİMOV MİRƏLƏKBƏR ƏLƏSGƏR OĞLU



30 sentyabr 1961-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində ziyalı ailəsində doğulmuşdur. Birinci sinfə doğma kəndlərində gedən Mirələkbər təhsilini Bakı şəhərindəki 158 saylı orta məktəbdə davam etdirmişdir. 1980-ci ildə hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin idman və hərbi hazırlıq fakültəsinə daxil olmuşdur. Bir müddət 153 saylı orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirmiş, 1993-cü ildə yeni yaradılan Yasamal taboruna komandir təyin edilmişdir. Füzuli rayonunun Alxanlı, Kürdmahmudlu kəndləri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1994-cü il martın 5-də Qorqan kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki ikinci Şəhidlər Xiyabanında dəfn edilmişdir. Evli idi. Bir övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə kapitan İbrahimov Mirələkbər Ələsgər oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Vaxtilə müəllim işlədiyi 153 saylı orta məktəb onun adını daşıyır.